**20.02.2006**

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Xocalı soyqırımının 14-cü ildönümü ilə əlaqədar**

**B Ə Y A N A T I**

Tarix boyu erməni millətçiləri tərəfindən Azərbaycan xalqına qarşı qanlı cinayətlər, terror aktları, soyqırım törədilmişdir.

Həqiqəti saxtalaşdırmaq, dünyanın "məzlum xalqı" obrazını yaratmaq "Böyük Ermənistan" xulyası ilə yaşayan erməni separatçılarının öz strateji məqsədlərini həyata keçirməkdə zaman-zaman əsas taktiki gedişi olub. Çoxsaylı tarixi sənədlər sübut edir ki, erməni millətçiləri tərəfindən hələ 1905-1907-ci, 1918-1920-ci, 1948-1953-cü illərdə Qafqazda öz tarixi ərazilərində etnik təmizləmə və soyqırımı siyasətinə məruz qalan yüzminlərlə azərbaycanlı kütləvi surətdə qətlə yetirilmiş, öz torpaqlarından deportasiya olunmuşdur.

1988-ci ildən ölkəmizə qarşı başlanan erməni təcavüzü də həmin çirkin siyasətin zorakılıq yolu ilə davamıdır.

Ermənistanın 18 ildən bəri yürütdüyü işğalçılıq siyasəti nəticəsində Azərbaycanın əzəli torpaqlarının 20 faizi zəbt edilmiş, 20 mindən çox soydaşımız həlak olmuş, 50 mindən artıq adam yaralanmış, əlil və şikəst olmuşdur. Hərbi təcavüz nəticəsində bir çox Azərbaycan hərbçisi əsir düşmüş, dinc əhali girov götürülmüş, onlardan bəziləri bu günə qədər qaytarılmamışdır. Bir milyondan artıq həmvətənimiz qaçqına və məcburi köçkünə çevrilmiş, yüzlərlə yaşayış məntəqəmiz, 6 minədək sənaye və kənd təsərrüfatı müəssisəsi, 4 mindən çox sosial-mədəni obyekt, o cümlədən 700-ə yaxın məktəb, habelə muzeylər və kitabxanalar dağıdılmış, ölkə iqtisadiyyatına 60 milyard ABŞ dollarından çox maddi ziyan vurulmuşdur.

1988-ci ilin fevralından ermənilərin Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi çağırışları ilə başlanan nümayişlərinə heç bir siyasi qiymət verməyən o vaxtkı SSRİ rəhbərliyi tərəfindən zəruri tədbirlər görülməməsi qısa müddət ərzində Dağlıq Qarabağ ərazisində azərbaycanlıların yaşadıqları yurd yerlərinin dağıdılıb yandırılması, əhalisinin qətlə yetirilməsi ilə nəticələndi.

İşğalçı hərbi birləşmələr növbəti həmləni müharibənin ön xəttində yerləşən Xocalı şəhərinə yönəltdilər. Düz 14 il bundan əvvəl, fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki Xocalı şəhərində erməni silahlı birləşmələrinin keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı ilə birgə törətdiyi cinayət müharibələr tarixində bənzəri olmayan hadisələrdəndir. Çoxsaylı ağır texnika şəhərə yeridildi, yaşayış evləri dağıdıldı və yandırıldı, tamamilə əliyalın olan dinc əhali – uşaqlar, qadınlar, qocalar, əlillər amansız

zülmə məruz qalaraq, qətlə yetirildi. Soyqırımı törədənlər Xocalı sakinlərini misli görünməmiş qəddarlıqla öldürmüş, diri-diri yandırmış, başlarının dərisini soymuş, gözlərini çıxarmışdılar.

Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdikləri növbəti genosid – Xocalı soyqırımı 613 nəfərin, o cümlədən 106 qadının, 63 azyaşlı uşağın, 70 qocanın həyatına son qoydu. 487 nəfər şikəst oldu, 1275 dinc sakin əsir götürüldü, itkin düşmüş 150 nəfərin taleyi isə hələ də məlum deyil.

Bu soyqırım aktı nəticəsində bəzi ailələr bütünlüklə məhv edilmiş, mülki əhali görünməmiş qəddarlıqla qətlə yetirilmiş, əsir götürülənlərə amansız işgəncə verilmişdir.

Günahsız körpələrin, qadınların, qocaların qətlə yetirildiyi, böyük bir şəhərin yer üzündən silindiyi o müdhiş gecədə bəşər tarixində dəhşətli bir faciə, əsl soyqırım baş vermişdir. Bu zaman soydaşlarımızın əsas insan hüquqları, ən başlıcası isə yaşamaq hüququ kütləvi şəkildə pozulmuşdur.

Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyətilə törədilməsi beynəlxalq və dövlətdaxili hüquqa əsasən məhz genosid olduğunu sübut edir. Erməni qəsbkarlarının törətdikləri bu vəhşilik və vandalizm aktı tərəqqipərvər bəşəriyyətin genosid kimi tanıdığı Xatın və Sonqmi faciələri ilə eyni səviyyədə qiymətləndirilməlidir. Dünyanın sülhsevər insanları, sivil dövlətləri, nüfuzlu beynəlxalq təşkilatları, dünya ictimaiyyəti bu acı həqiqəti gec-tez bilməli, insanlığa qarşı törədilən bu cinayət öz layiqli qiymətini almalıdır.

Beynəlxalq hüquqa görə, genosid sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayətlərdən biri hesab olunur. BMT Baş Məclisinin 1946-cı il 11 dekabr tarixli 96 (I) saylı qətnaməsində qeyd olunur ki, genosid, insan qruplarının yaşamaq hüququnu tanımamaqla insan mənliyini təhqir edir, bəşəriyyəti insanlar tərəfindən yaradılan maddi və mənəvi dayaqlardan məhrum edir. Belə bədnam əməllər BMT-nin məqsəd və vəzifələrinə tam ziddir. BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş və 1961-ci ildə qüvvəyə minən Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyada genosid cinayətinin hüquqi əsası təsbit olunmuşdur. Konvensiyaya qoşulan dövlətlər sülh, yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq, genosidin beynəlxalq hüquq normalarını pozan cinayət olduğunu təsdiq edərək, onun qarşısının alınması və səbəbkarlarının cəzalandırılması üçün tədbirlər görməyi öhdələrinə götürmüşlər.

Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit olunmuş genosid cinayətini təşkil edən bütün əməllər tətbiq olunmuşdur.

Bu işğalçı ölkənin yürütdüyü terrorçuluq siyasəti uzun illərdir ki, dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Halbuki beynəlxalq hüquq normalarına, BMT-nin və ATƏT-in prinsiplərinə görə, dövlətlərin sərhədlərinin toxunulmazlığına hörmət edilməlidir, ərazi bütövlüyünün və suverenliyin pozulması yolverilməzdir. BMT Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş torpaqlarının qeyd-şərtsiz azad edilməsi barədə dörd qətnamə qəbul etsə də, işğalçı Ermənistan bunları hələ də yerinə yetirmir.

Azərbaycan tərəfi bu münaqişənin sülh yolu ilə həllinə daim səy göstərir. Prezident Heydər Əliyev ölkəmizin bu taleyüklü məsələsi ilə bağlı cəsarətli addımlar atmışdır. 2000-ci ilin sentyabrında BMT-də keçirilən Minilliyin zirvə görüşündə Heydər Əliyevin sülhməramlı fikirləri səslənmişdi: "Ermənistan-Azərbaycan münaqişəsini həll etmədən, regionda xaricdən təzyiq amillərinə son qoymadan regionda sülhə və təhlükəsizliyə nail olmaq mümkün deyil."

Prezident İlham Əliyev BMT Baş Məclisinin 58-ci sessiyasında BMT-ni Ermənistanın Azərbaycana qarşı təcavüzünə seyrçi qalmamağa çağırmış, terrorla mübarizə aparan beynəlxalq birliyin bu məsələdə ikili standartlara yol verilməsinə qətiyyətlə etirazını bildirmişdir. Avropa Şurasında ilk dəfə olaraq Ermənistanın təcavüzkar tərəf kimi tanınmasına nail olmuşdur, Ermənistanın Dağlıq Qarabağı və Azərbaycanın daha 7 rayonunu işğal altında saxlaması faktı AŞPA-nın rəsmi sənədlərində öz əksini tapmışdır.

Xocalı soyqırımı və işğalçı Ermənistanın torpaqlarımızda törətdiyi digər faciələr nəticəsində "İnsan hüquqları haqqında Ümumi Bəyannamədə", "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasında və digər beynəlxalq aktlarda təsbit olunmuş hüquq və azadlıqlar, o cümlədən insanların yaşamaq hüququ kobud şəkildə, kütləvi surətdə pozulmuş, insanların şərəf və ləyaqəti tapdalanmışdır.

Təəssüf ki, insan hüquqlarının kütləvi və kobud şəkildə pozulması ilə nəticələnmiş Xocalı soyqırımına hələ də beynəlxalq miqyasda hüquqi qiymət verilməmiş, terrorçu, işğalçı əməllərə qarşı qəti tədbirlər görülməmişdir. Ümumbəşər dəyərləri ilə, beynəlxalq hüquqi normalara əsasən düşünmək, qərar qəbul etmək, insanlara, bütövlükdə xalqlara ikili standartlarla yanaşmağa son qoymaq vaxtıdır. Xocalının bir gecədə Yer üzündən silinməsi ilə bağlı istər rəsmi, istərsə də qeyri-rəsmi səviyyədə beynəlxalq təşkilatlara dəfələrlə müraciətlər olunsa da, hələ də bu facaiə sükutla qarşılanır və gündəmə çıxarılmır.

Böyük ümidlə dünya birliyinə, mötəbər beynəlxalq qurumlara və dünya xalqlarına müraciət edərək Azərbaycana qarşı aparılan uzunmüddətli erməni təcavüzünə, terror siyasətinə, kütləvi şəkildə insan hüquqlarının pozulmasına

son qoyulacağına, bu ağrılı münaqişənin sülh və danışıqlar yolu ilə aradan qaldırılmasına dəstək veriləcəyinə, zəbt olunmuş torpaqların qaytarılacağına, qaçqına və məcburi köçkünə çevrilmiş yüz minlərlə soydaşımızın öz yurdlarına dönəcəyinə, onların konstitusion hüquqlarının bərpa ediləcəyinə inanıram.

Ümid edirik ki, nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanın haqq mövqeyini dəstəkləyəcək, ədalət tezliklə öz yerini tapacaq, ölkəmizə qarşı təcavüzü, Xocalı soyqırımını törədənlər beynəlxalq məhkəmə qarşısında cavab verəcəklər. Faciəni törədən erməni terrorçuları və onların havadarları cinayət məsuliyyətinə cəlb edilməli, soyqırımı dövlət siyasətinin tərkib hissəsinə çevirən Ermənistan dövlətinə qarşı səlahiyyətli beynəlxalq qurumlar tərəfindən sanksiyalar tətbiq olunmalıdır.

İnanırıq ki, Siz Azərbaycan torpaqlarında sülhün və əmin-amanlığın, Azərbaycan xalqının pozulmuş hüqüq və azadlıqlarının bərpa olunmasında bütün imkanlarınızı səfərbər etməkdə yardımçı olacaqsınız.

**Elmira Süleymanova**
**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman)**

**20.02.2006**

Bəyanat BMT-nin Baş Katibinə, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, ATƏT-ə, Avropa Şurasına, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına ünvanlanmışdır.